***Azərbaycan Respublikası***
***Maliyyə Nazirliyinin***
*"06" dekabr 2011-ci il tarixli*
*Q-01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta şəhadətnaməsinin forması, çap olunması və doldurulması

# QAYDALARI

**Bakı2011**

Bu Qaydalar«İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan RespublikasıPrezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrası məqsədiləhazırlanmışdır və sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta şəhadətnaməsinin(bundan sonra – "şəhadətnamə")forması, onun çap olunması və doldurulması iləbağlı məsələləri tənzimləyir.

## 1. Sərnişinlərin icbari fərdi qəza sığortası şəhadətnaməsinin forması

Şəhadətnamənin forması üz və arxa hissədən ibarət olmaqla, bu Qaydalara Əlavədəmüəyyən edilir.

Şəhadətnaməformasının üz hissəsindəsığortaçı, sığortalı və müvafiq nəqliyyat vasitəsinə dair məlumatların, həmçinin sərnişinlərin icbari fərdi qəza sığortası müqaviləsinin əsas şərtlərinin qeyd olunmasını nəzərdə tutan cədvəl əks etdirilir.

Şəhadətnaməformasının arxa hissəsində "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun 5.3-cü, 9.5-ci, 32-ci, 36.1-ci, 64.1-ci və 65.1-ci maddələrindən çıxarışlar qeyd edilir.

## 2. Sərnişinlərin icbari fərdi qəza sığortası şəhadətnaməsinin formasının çap olunması qaydası

Şəhadətnaməblanklarının (bundan sonra – "blanklar") əsli və surəti bu Qaydaların 2.2 – 2.6-cı bəndlərinin tələbləri nəzərə alınmaqla, bu Qaydalara Əlavədəmüəyyən edilmiş formada iştirakçısığortaçıların vəsaiti hesabınaİcbari Sığorta Bürosunun sifarişi ilə ciddi hesabat blanklarının hazırlanması fəaliyyətinəxüsusi razılığı (lisenziyası) olan mətbəədəçap etdirilir.

Blankların əsli A4 formatında xüsusi müdafiə nişanları olan xüsusi ağ kağız vərəqdə üz və arxa hissədən ibarət olmaqla, surəti isə adi A4 kağız formatında olan ağ vərəqdə,yalnız üz hissədən ibarət olmaqla çap edilir.

Blankların əsli və surətinin seriyasına aid hissədə DA-dan başlayaraq iki hərfli seriyalar, nömrəsinə aid hissədə000001 nömrəsindən başlayaraq altı rəqəmli nömrələr ardıcıllıqla qeyd edilir; seriyanın DB-yə və sonrakı seriyalara dəyişməsi altı rəqəmlişəhadətnamə nömrələrinin başa çatmasından sonra həyata keçirilir.

Blankların əslinin çap edilməsi zamanı aşağıdakı əlavətələblər də nəzərəalınmalıdır:

blankın üz hissəsinin fonunda iri hərflərlə açıq boz rəngdəicbari sığorta şəhadətnaməsi sözlərinin baş hərfləri – "İSŞ" həkk edilir;

blankın üz vəarxa hissəsinin kənarları günbəzşəkilli, qəhvəyi rəngli naxışlarla haşiyələnir;

blankın üz hissəsinin aşağı sağ küncündə qəhvəyi rəngli avtobus, qatar və təyyarə təsvirləri həkk olunur.

Şəhadətnaməformasının üz hissəsinin sonunda müəyyən edilmiş "Sığortalının (hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası"sözləri şəhadətnamə blanklarının yalnız surətində qeyd edilir.

Hər bir sərnişinəgörə sığorta məbləği (4.1-ci bənd) vəsığorta müqaviləsinin qüvvədə olduğu ərazi (6-cı bənd) qanunla sərnişinlərin icbari fərdi qəza sığortasına aid bütün sığorta müqavilələri üçün eyni müəyyən edildiyindən, bu şərtlər formada əvvəlcədən müəyyənləşdirilir.

Büro çap olunmuş şəhadətnamə blanklarının seriya vənömrələri barədə çap olunma tarixindən 3 iş günü müddətində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinə məlumat verməlidir.

## 3. Sərnişinlərin icbari fərdi qəza sığortası şəhadətnaməsinin formasının doldurulma qaydası

Şəhadətnaməforması aşağıdakı məlumatlar aidiyyəti bəndlərdəgöstərilməklə texniki vasitədə çap olunmaqla və ya əl ilə doldurulur:

1.1-ci bənddəsığortaçının adı, 1.2-ci bənddəsığortaçının olduğu yerin ünvanı,1.3-cü bənddə isə ən azı bir telefon nömrəsi qeyd edilir.

Mülkiyyətində nəqliyyat vasitəsi olan, yaxud nəqliyyat vasitəsinə faktiki sahibliyi həyata keçirən (yəni onu icarəyə götürmüş və ya digər qanuni əsaslarla istifadə edən):

**3.1.2.1.** fiziki şəxs olduqda – 2.1-ci bənddə adı, atasının adı,soyadı, 2.2-ci bənddə yaşayış yerinin ünvanı, 2.3-cü bənddə ən azı bir telefon nömrəsi;

**3.1.2.2.** hüquqi şəxs olduqda – 2.1-ci bənddə adı, 2.2-ci bənddə olduğu yerin ünvanı, 2.3-cü bənddə ən azı bir telefon nömrəsi qeyd edilir.

3.1-ci bənddənəqliyyat vasitəsinin növü, 3.2-ci bənddəqeydiyyat şəhadətnaməsinin seriya və nömrəsi, 3.3-cü bənddə dövlət qeydiyyat nişanı,3.4-cü bənddə marka və modeli 3.5-ci bənddə sərnişin yerlərinin sayı, 3.6-cı bənddə isə istehsal ili qeyd edilir.

4.2-ci bənddə4.1-ci bənddə müəyyən edilmiş sığorta məbləğinin (5000 manatın) 3.5-ci bənddə qeyd olunan sərnişin yerlərinin sayına hasilindən alınan məbləğ qeyd edilir.

5-ci bənddə "Sərnişinlərin icbari fərdi qəza sığortası üzrəsığorta haqlarının məbləğinin hesablanması Qaydası"na uyğun olaraq müəyyən edilmiş sığorta haqqı qeyd edilir.*

7-ci bənddəsığorta müqaviləsinin qüvvəyə mindiyi tarix, 8-ci bənddə isə sığorta müqaviləsinin qüvvədən düşdüyü tarix qeyd edilir.

Texniki vasitədəçap edilməklə və ya əl ilə doldurulmuş şəhadətnamə blankısığortaçının səlahiyyətli əməkdaşıvə ya sığorta vasitəçisinin imzası vəsığortaçının möhürü ilə təsdiq edilməklə əsli sığortalıya, yaxud onun səlahiyyətli nümayəndəsinə təqdim olunur.

Sığortalıvə ya onun səlahiyyətli nümayəndəsi şəhadətnaməblankının surətində bu məqsədlə müəyyən edilmiş müvafiq hissəni imzalayır.

* Azərbaycan Respublikası Prezidentinin «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.11-ci yarımbəndinə uyğun olaraq, sərnişinlərin icbari fərdi qəza sığortası üzrəsığorta haqlarının məbləğinin hesablanması qaydasını müəyyən etmək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinətapşırılmışdır.

*Azərbaycan Respublikası Maliyyə Nazirliyinin*
*"Sərnişinlərin icbari fərdi qəza sığortası üzrəsığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları"na Əlavə*

## SƏRNİŞİNLƏRİN İCBARİFƏRDİ QƏZA SIĞORTASI ŞƏHADƏTNAMƏSİ

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Şəhadətnamə №:** | | | **Blank:** | Seriya: | DA | № | 000001 |

**1. SIĞORTAÇI:**

| | |
|---|---|
| Adı: | |
| **1.1.**Ünvanı: | |
| **1.2.**Telefon nömrəsi: | |

**2. SIĞORTALI:**

| | |
|---|---|
| ***2.1.***Adı: | |
| **2.2.**Ünvanı: | |
| **2.3.**Telefon nömrəsi: | |

| **3. NƏQLİYYAT VASİTƏSİNƏ DAİR MƏLUMAT** | | | |
|---|---|---|---|
| **3.1.**Növü: | | **3.2.** Qeydiyyat şəhadətnaməsinin seriya və nömrəsi: | |
| **3.3.** Dövlət qeydiyyat nişanı: | | **3.4.** Marka və model: | |
| **3.5.** Sərnişin yerlərinin sayı: | | **3.6.** İstehsal ili: | |

| **4. SIĞORTA MƏBLƏĞİ** *(manat)* | | | |
|---|---|---|---|
| **4.1.** Hər bir sərnişinə görə | 5000 (beş min) | **4.2.** Nəqliyyat vasitəsi üzrə | |

| | | | | |
|---|---|---|---|---|
| **5. SIĞORTA HAQQI** *(manat)* | | | **6. SIĞORTANIN QÜVVƏDƏ OLDUĞU ƏRAZİ** | Nəqliyyat vasitəsinin sərnişin daşıma xidmətini yerinə yetməsi ilə əlaqədar olduğu bütün ərazilər |

| | | | |
|---|---|---|---|
| ***7.* SIĞORTA MÜQAVİLƏSİ QÜVVƏYƏ MİNİR:** | | **8. SIĞORTA MÜQAVİLƏSİ QÜVVƏDƏN DÜŞÜR:** | |

**Sığortaçının nümayəndəsi** ________________ ***Möhür Yeri***
*imzası*

__________________________________________ ____________________
*adı, atasının adı, soyadı,* *telefon nömrəsi*

**Sığortalının*(hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası***__________

**"İCBARİ SIĞORTALAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDAN ÇIXARIŞ**

**Maddə 5.3**. *Mülkiyyətində sərnişin daşıma xidmətlərini həyata keçirmək üçün nəqliyyat vasitəsi olan və ya ona faktiki sahibliyi həyata keçirənşəxs həmin nəqliyyat vasitəsi ilə bağlı sərnişinlərin icbari fərdi qəza* sığorta*sı*müqaviləsi bağlamaq üçün *sərnişinlərin* icbari *fərdi qəza* sığortasınövünün aparılmasına icazəsi olan hər hansı sığortaçını seçməkdə sərbəstdirlər.

**Maddə 9.5**. Sığorta ödənişi verildikdə, ...*bu* şəhadətnaməsığortaçı tərəfindən geri alınır və sığortalının sığorta məbləğini qanunvericiliklə müəyyənləşdirilmiş miqdarda bərpa etmək üçün tələb olunan məbləğəmütənasib olaraq əlavə sığorta haqqı ödəməsişərtilə ona *bu* şəhadətnamənin son qüvvədə olma tarixinədək müddətəqüvvədə olan şəhadətnaməyə əlavəverilir.

**Maddə 64.1.** Sərnişinlərin icbari fərdi qəza sığortası sərnişin daşımaları xidmətini həyata keçirən hava, su, dəmiryolu və avtomobil nəqliyyatıvasitələrində olan sərnişinlərin həyatına və sağlamlığına sığorta hadisəsi nəticəsindəzərər dəyməsinə görə sığorta təminatının verilməsi məqsədi ilə tətbiq edilir.

**Maddə 65.1.** ...Azərbaycan Respublikasının ərazisində, həmçinin xarici ölkələrə və ya xarici ölkələrdən qanunvericilikdə müəyyən edilmiş qaydada sərnişin daşıma xidmətlərini həyata keçirmək üçün mülkiyyətində nəqliyyat vasitəsi olan və ya belə nəqliyyat vasitəsinə faktiki sahibliyi həyata keçirən, həmçinin onu icarəyəgötürmüş, yaxud digər qanuni əsaslarla istismar edən fiziki və hüquqi şəxslər nəqliyyat vasitələrinin sahibləri hesab olunurlar.

**Maddə 36.1.** Nəqliyyat vasitəsi sərnişin daşıma xidmətini yerinəyetməsi ilə əlaqədar hərəkətdə olarkən və ya bu məqsədlə dayanacaqlarda (hava limanlarında, dəniz, dəmiryolu və ya avtobus vağzallarında, stansiyalarında, platformalarında və ya körpülərində)olarkən sığorta olunmuş sərnişinin nəqliyyat vasitəsindəolduğu müddət ərzində *sığorta risklərinin baş verməsi, yəni* nəqliyyat vasitəsinin istismarı ilə əlaqədar ***sərnişinin*** bədən üzvlərinin, toxumalarının zədələnməsi nəticəsində**yüngül və ya ağır xəsarət alması, əmək qabiliyyətini tam və ya qismən itirməsi, yaxud ölməsi**faktı sığorta hadisəsi hesab edilir.

**Maddə 32.** Sığortaçı *bu şəhadətnamə* ...üzrə*sərnişinlərin* sağlamlığına dəyən zərərlə bağlı öhdəliklərini ödəmə qabiliyyətinin olmamasına görə yerinəyetirə bilmədikdə, *zərərinəvəzi sığorta olunanın müraciəti əsasındaİcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişi verilməklə ödənilir.*

***QEYD:***

***Sığortalıvə ya sığorta olunan bu şəhadətnamə əsasında bağlanmış icbari sığorta müqaviləsi üzrəhüquqlarının pozulduğunu hesab etdiyi hallarda 404-46-99 nömrəli telefonla və ya www.sigorta.maliyye.gov.az internet səhifəsindəmövcud olan "Sorğu və müraciətlər" bölməsi, yaxud info@maliyye.gov.az elektron poçt ünvanı vasitəsiləBakı şəhəri, C. Məmmədquluzadəküçəsi-71 ünvanında yerləşən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinə şikayət edə bilər.***